# SƏYAVÜŞ

*Şərqin böyük dahilərindən*
*Firdovsinin min illiyinə ithaf*

*Faciə – 5 pərdədə*

## ƏŞXAS

K e y k a v u s – Kəyan tacdarı, bir qadar ixtiyar.
S ü d a b ə – Suriyə kralının qızı, Keykavus hərəmi...
R ü b a b ə – Südabənin süt anası, ağsaçlı.
S ə y a v ü ş – Keykavus oğlu... (əvvəlki hərəmindən) pək gənc...
R ü s t ə m – Məşhur pəhlivan, Zal oğlu.
V ə z i r
M ü n ə c c i m
M ü n ə c c i m b a ş ı
T u s
B ə h r a m
Y a v ə r l ə r
} – Saray ərkanı
Ə f r a s i y a b – Türk xaqanı, ortayaşlı.
G ə r ş i v ə z – Onun qardaşı.
F i r ə n g i z – Əfrasiyab qızı.
P i r a n – Divanbəyi, ixtiyar.
T o s u n – Gərşivəzin yavəri.
Çin elçisi, rəqqasə, Kösə lələ, pişxidmət, cariyələr, cəngavərlər, köylülər və sairə...
Vali, müşavir, Altay, Yalçın, təzə gəlin... nədimələr, saray qızları, yavərlər, əskərlər və isyançılar...

## BAŞLANĞIC

Zabilistanda tə'lim meydanı. Səhər erkən... Coşğun muzika. Sadə qiyafəli, qumral saçlı S ə y a v ü ş bir köy d ə l i q a n l ı s i l ə qılıc tə'limi yaparaq vuruşur. Bir yanda Z a l o ğ l u R ü s t ə m l ə başqa cəngavərlər, bir yanda səmimi çöhrəli, ağsaçlı bir q a d ı n l a k ö y l ü q ı z l a r və dəliqanlılar tamaşa edərlər. Səyavüş arqadaşına üstün gəlir.

Ümumi alqış.

R ü s t ə m

Afərin, Səyavüş!

K ö y l ü l ə r

Yaşa, bin yaşa!

S ə y a v ü ş

Ər gərək ər meydanında çarpışa.

R ü s t ə m

Kim istərsə, gəlsin!

İ k i n c i  d ə l i q a n l ı

Bənimdir sıra.

S ə y a v ü ş

Sən də gəl, ər istər bana saldıra.

Qılıclar parlar, vuruşurlar. Səyavüş üstün gəlir. Alqış...

K ö y l ü l ə r

Yaşa!

S ə y a v ü ş

Kim gəlirsə gəlsin, çəkinməm.

R ü s t ə m

Yalnız eşdir ona Zal oğlu Rüstəm.

S ə y a v ü ş

Bən səndən öyrəndim qəhrəmanlığı,
Yenilsəm də yoqdur peşimanlığı.



R ü s t ə m

Durmayın, çalın da gurlasın davul.

S ə y a v ü ş

Aydın olsun kimdir qəhrəman oğul.

(*Çarpışırlar, hiç biri yenilməz.*)

R ü s t ə m

Nə sən, nə bən! Biz ər oğlu ərləriz,
Gücdə, saldırışda həp bərabəriz.

Ətrafdan əskəri muzika eşidilir. Rüstəm əlini alnına qoyub baqar.

B ə h r a m

Kimdir onlar? İştə önlərində Tus!

R ü s t ə m

Bəlli, göndərmişdir onu Keykavus.

T u s  bir bölük cəngavərlə gəlir, təmənna edər.

H a m ı

Salam Zal oğluna Kəyan şahından.

T u s

Salam Səyavüşə!.. Al, iştə fərman!

(*Bir məktub verir.*)

Bu gündən atmalı köy mühitini,
Möhtəşəm saraylar bəkliyor səni!

S ə y a v ü ş

(*məktubu gözdlən keçirir, Rüstəmə*)

Azadə dirliyə alışdım artıq,
Ağır gəlməzmi ya bana ayrılıq?

R ü s t ə m

Madam ki, əmr etmiş bizə şah baban,
Çıqmalıyız yola günəş doğmadan.

S ə y a v ü ş

(*ağsaçlı, köylü qadına yaqlaşır, əlini öpər*).

Sağlıqla, ey böyük, möhtərəm ana!
Sən anadan daha yaqınsın bana!

Q a d ı n

(*onun alnından öpərək*)

Quzum! Er-gec parlar adın cihanda,
Diz çökərlər sana qarşı hər yanda.
Zalimlə məzlumu, saqın, bir tutma,
Yediyin ətməyi, duzu unutma!
Hər ölkəyə varsan, bizi anarsın,
Nasırlı əllərə acır, yanarsın.

(*Dərindən ah çəkərək.*)

Şən saraylar məğrur etməsin səni,
Düşün daim yoqsulların dərdini.
Uyma evlər yıqan kinli şahlara,
Acı! Köyüsləri yaqan ahlara!

(*Səsini yüksəldərək.*)

Biz səni bəslədik, çalış, adil ol!
Haydi, yavrum, şanlı yol, uğurlu yol!

Coşqun muzika... Uzaqlaşırlar.

R ü s t ə m

Şanlı yol, uğurlu yol!

K ö y l ü l ə r

Şanlı yol, uğurlu yol!

(*Deyə onların izilə gedərlər.*)

***Pərdə***

## BİRİNCİ PƏRDƏ

### I SƏHNƏ

Keykavus sarayında son dərəcə parlaq bir salon... Bağçaya baqır, əlvan camlı, ipək pərdəli böyük pəncərələr... Coşqun musiqi ətrafı çıplatır. Gənc, əsmər, cazibəli, möhtəris baqışlı S ü d a b ə kölələr omuzuna yüklənmiş taxt-rəvan üzərində i k i c a r i y ə ilə bərabər gəlir. Açıq pəncərədən dışarıdakı ziyafəti seyr edər. Palabıyıq bir pişxidmət qapı önündə ayaqda durub baqır.

B i r i n c i c a r i y ə

(*gənc... bağçeyi göstərir*)

Nə parlaq ziyafət, nə şanlı bayram!
Keykavus sarayı rəqs edər tamam.

İ k i n c i c a r i y ə

(*daha gənc*)

Nazlı məlikəmiz Südabə, əfsus,
Hər sevincə qarşı kədərli, məyus.

S ü d a b ə

Nəş'ədən bayılsa bütün kainat,
Sevda bulutları gülərmi? Heyhat!